**Təranə Nəcəfova**
**AMEA İqtisadiyyat İnstitutu**
**"Demoqrafiya və məşğulluq problemləri" şöbəsi, a.e.i.**
**E-mail: tarana1@mail.ru**
**UOT:330.341: 336.025; JEL: D80; O00;O30.**

# Azərbaycanda peşə-ixtisas təhsilinin müasir inkişaf istiqamətləri

***Xülasə***

*Peşə təhsili və təlimi sektorunda müəyyən edilmiş prioritetlərin real ÜDM-ə təsirinin təxminən 6 milyon manat olacağına baxmayaraq, bu prioritetlər digər sektorların prioritetləri çərçivəsində 1 milyard manat məbləğində dolayı təsirin meydana çıxmasına səbəb olacaqdır. Belə ki, peşə təhsili və təlimi sektoru iqtisadiyyatın digər sektorları ilə qarşılıqlı əlaqədə olmaqla, həmin sektorların potensialının tam reallaşdırılmasında mühüm rol oynayır və bu sektora qoyulan investisiyalar nəticədə iqtisadiyyata multiplikativ təsir göstərir. Məqalədə Azərbaycan Respublikasında peşə-ixtisas təhsilli kadrların hazırlanması və istifadəsi istiqamətləri araşdırılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərmişdir ki, peşə təhsili və təlimi sektoru iqtisadiyyatın digər sektorları ilə qarşılıqlı əlaqədə olmaqla, həmin sektorların potensialının tam reallaşdırılmasında mühüm rol oynayır.*

***Açar sözlər:*** *təhsil, peşə təhsili, kadr hazırlığı, təlim, biznes, inkişaf*

## Giriş

Azərbaycan Respublikasında texniki peşə təhsili müxtəlif inkişaf mərhələlərində formalaşaraq ölkə iqtisadiyyatının peşə-ixtisas kadrlarına olan ehtiyacının ödənilməsində mühüm rol oynamışdır. texniki peşə təhsilinin məzmununun yeniləşdirilməsi sahəsində xeyli iş görülmüş, tədris plan və proqramlarının məzmunu və quruluşunun təkmilləşdirilməsi istiqamətində əməli addımlar atılmışdır. Texnika və texnologiyanın, elmin və istehsalın hazırkı inkişaf səviyyəsi peşə-ixtisas təhsili müəssisələrində mütəxəssis hazırlığı səviyyəsini nəzərəçarpacaq dərəcədə qabaqlayır. Bu proses iqtisadiyyatın ən vacib sahələrində transformasiya proseslərinin xüsusiyyətlərini nəzərə alaraq təhsil mühitinin sistemli şəkildə inkişaf etdirilməsinə ehtiyac yaradır. Bundan əlavə, orta ixtisas təhsili müəssisələrində məzunların hazırlanması keyfiyyəti işəgötürənlərin ehtiyaclarını ödəmək üçün çox vaxt tamamilə qəbuledilməzdir, bu da işsizliyin artmasına, bilik tələb edən sahələrin inkişafının ləngiməsinə və təhsil müəssisəsinin özü üçün isə-təklif olunan təhsil xidmətlərinə tələbatın olmamasına gətirib çıxarır. Kadr hazırlığının keyfiyyətinin təhlili, iqtisadiyyatın əsas tələblərini nəzərə alaraq, peşə təhsili sisteminin fəaliyyətində düzəlişlər etməyə, məzunları uğurlu bir peşə karyerası üçün tətbiq edəcəkləri müvafiq və zəruri biliklərlə təchiz etməyə imkan verir.

## Peşə-ixtisas təhsili müəssisələrində kadr hazırlığının müasir vəziyyəti

Peşə təhsili iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin formalaşmasında böyük əhəmiyyətə malikdir. Yerli və beynəlxalq qurumlar və ölkələrin iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirən məsul şəxslər iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün müasir peşə təhsili sisteminin bərqərar olmasına xüsusi önəm verirlər. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" çərçivəsində bir sıra tədbirlər həyata keçirilmiş və nəticədə, peşə təhsili müəssisələrinə qəbul səviyyəsi yüksəlmişdir. Son illərdə qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması istiqamətində aparılan məqsədyönlü islahatlar əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla, bu tələbatın ödənilməsinə imkan verən çevik və bazaryönümlü peşə təhsili sisteminin qurulmasını zəruri edir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli Fərmanına müvafiq olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təşkil edilməsini həyata keçirir. Agentliyin təsis edilməsi peşə təhsilinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın peşə təhsili sistemi ilk peşə-ixtisas təhsili müəssisələrindən ibarətdir. Hazırda ölkənin peşə təhsili sistemində, ümumilikdə, 118, o cümlədən 116 dövlət və 2 özəl təhsil müəssisəsi mövcuddur. Onlardan 6-sı Dağlıq Qarabağ və ətraf ərazilərdə fəaliyyət göstərmiş və hazırda fəaliyyəti dayandırılmış peşə məktəbləridir. Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən dövlət peşə təhsili müəssisələrində 154 ixtisas üzrə 24 minə yaxın şagird təhsil alır. Peşə təhsili müəssisələrində təhsil, əsasən dövlət hesabına və qismən ödənişli əsaslarla həyata keçirilir.

Təhsil səviyyəsi iqtisadi, elmi və texniki tərəqqinin başlanğıc nöqtəsidir, təhsilin geriliyi rəqabət qabiliyyətinə birbaşa təsir edir. Statistikaya görə, Azərbaycanda məşğulluğun ümumi strukturunda 2020-ci ildə peşə-ixtisas təhsili müəssisələrinin məzunları peşə təhsili müəssisələrinin ümumi məhsulunun 25% -nin yaradılmasında iştirak edirlər. Rusiyada məşğulluğun ümumi strukturunda 2020-cu ildə peşə-ixtisas təhsili müəssisələrinin məzunları peşə təhsili müəssisələrinin ümumi məhsulunun 33%-ində iştirak edir. 2020-ci ildə Azərbaycanda əmək bazarında işsiz kimi qeydiyyatdan keçmiş orta ixtisas təhsili müəssisələrinin məzunlarının sayı 29%-dir (Rusiyada bu rəqəm 39%-dir). Bu, təhsili elmi, texniki və sosial-iqtisadi tərəqqinin hazırkı mərhələsinə uyğun gəlməyən orta ixtisas təhsili olan şəxslərə olan tələbatın təmin olunmadığını göstərir. Həyata keçirilmiş tədbirlərə baxmayaraq, təhsil sisteminin prioritet sahələrindən biri olan peşə təhsili və təlimi sistemində müəyyən problemlər mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə orta təhsil pilləsi məzunlarının 40-60%-i məhz peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunduğu halda, Azərbaycanda bu rəqəmin 11%-dən aşağı olması əhalinin bu təhsil istiqamətinə marağının az olduğunu göstərir. Ölkəmizdə 2020-ci ilin əvvəlinə ümumilikdə 110 peşə təhsil müəssisəsi fəaliyyət göstərir, bu da 2016-ci il ilə müqaisədə 3 müəssisə azdır, 2019/2020-ci tədris ilində Azərbaycan peşə təhsil müəssisələrində ümumilikdə 23193 tələbə təhsil alır.

**Qrafik 1.**

**Peşə-təhsil müəssisələrinin göstəriciləri**




Mənbə: Qrafik [1] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ölkədə iki dildə - Azərbaycan və rus dillərində təhsil xidmətləri göstərilir. 2020-ci ilin əvvəlinə Azərbaycan Respublikasında həm tam orta təhsil bazasında 5224 nəfər, hər ümumi təhsil orta təhsil bazasinda 10710 nəfər, həm gənclərə tam orta təhsil verməyən qruplar arasında 2827

nəfər, həm Ədliyyə Nazirliyinin islak əmək müəssisələrinin peşə məktəblərində 1008 nəfər, həm xüsusi peşə məktəblərində 4 nəfər, həm də ödənişli əsaslarla qısa müddətli kurslarda 3420 təhsil alır. Peşə təhsili müəssisələrinə qəbul 2019-cu ildə 17124 nəfər olmuşdur. Əyani peşə təhsil müəssisələrinə qəbul 11935 nəfər, o cümlədən: tam orta təhsil bazasında şöbələrə 60101 nəfər, ümumi orta təhsil bazasında şöbələrə 3794 nəfər, gənclərə tam orta təhsil verməyən qruplara 2040 nəfər, Ədliyyə Nazirliyinin islak əmək müəssisələrində peşə məktəblərinə 920 nəfər, ödənişli əsaslarla hazırlıq müəssisələrinə 4269 nəfər qəbul olmuşdur. Peşə təhsili müəssisələrini bitirmiş şagirdlərin sayı 2019-cu ildə 15516 nəfər olmuşdur, əyani öeşə təhsil müəssisələrinə 10316 nəfər, o cümlədən: tam orta təhsil bazasında şöbələrə 4708 nəfər, ümumi orta təhsil bazasında şöbələrə 4293 nəfər, gənclərə tam orta təhsil verməyən qruplara 1315 nəfər, Ədliyyə Nazirliyinin islak əmək müəssisələrində peşə məktəblərinə 751 nəfər, kadrların yenidən hazırlanması kurslarını 38 nəfər, ödənişli əsaslarla hazırlıq müəssisələrinə 4411 nəfər bitirmişdirlər. 2020-ci ilin əvvəlinə peşə təhsili müəssisələrində müəllimələrin sayı 1528 nəfər, o cümlədən qadınların sayı 1092 nəfər olmuşdur.

Ölkədə 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 24482 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 23193 nəfər olmuşdur (yəni, azalma 1289 nəfər və ya 12.9% təşkil etmişdir). Tam orta təhsil bazasında 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 5008 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 5224 nəfər olmuşdur (yəni 216 nəfər  və ya 1.04 % artmişdir). Ümumi orta təhsil bazasında 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 13131 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 10710 nəfər olmuşdur (yəni azalma 2421 nəfər və ya 2.4% təşkil etmişdir). Gənclərə tam orta təhsil verməyən qruplarda isə 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 3112 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 2827 nəfər olmuşdur (yəni azalma 285 nəfər və ya 2.8% təşkil etmişdir). Ədliyyə Nazirliyinin islah əmək müəssisələrinin peşə məktəblərində 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 1020 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 1008 nəfər olmuşdur (yəni azalma cəmi 2 nəfər və ya 0.01% təşkil etmişdir). Xüsusi peşə məktəblərində 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 4 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 4nəfər olmuşdur (yəni rəqəmlər deyişməmişdir). Ödənişli əsaslarla qısa müddətli kurslarda 2016-cı ildə peşə təhsili müəssisələrində tələbələrin sayı 2207 nəfər idisə, 2020-ci ilin əvvəlinə bu göstərici 3220 nəfər olmuşdur (yəni 1013 nəfər və ya 10.1 faiz artmişdir). Həmçinin, 2016-cı ildə peşə təhsili müəssisələrində müəllimlərin sayı 1673 nəfər idisə, 2019-cu ilin əvvəlinə bu göstərici 1635 nəfər olmuşdur (azalma 38 nəfər təşkil etmişdir).

**Qrafik 2.**

**Peşə təhsili müəssisələrində müəllimlərin sayı**




Mənbə: Qrafik[1] məlumatları  əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycanda peşə təhsili və təlimi sistemi və bu sistemin fəaliyyəti, tədris edilən peşə ixtisasları, icra göstəricilərinə əsaslanan qiymətləndirmə nəticələri, peşə seçimi və karyera imkanlarına dair digər aidiyyəti məlumatlarla bağlı mərkəzləşdirilmiş və səhih məlumat bazası mövcud deyildir. Sistemsiz şəkildə toplanmış məhdud həcmli məlumatlar isə çoxsaylı məlumat platformaları arasında yayılmaqla, potensial tələbələrə müvafiq peşə təhsili və təlimi müəssisəsinin seçilməsində müxtəlif mənbələrdə axtarış aparmaq məcburiyyəti yaradır, seçim prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə aşağı salır. İxtisaslar üzrə məlumatlar, əldə olunacaq bacarıqların təsviri, işəgötürənlər, məzunların işlə təminat imkanları, ixtisaslar üzrə əməkhaqqı barədə məlumatların olmaması şagirdlər, valideynlər, işəgötürənlər və təhsil müəssisələri tərəfindən müəyyən qərarların verilməsində çətinliklər yaradır.

**Nəticə**

Peşə təhsili və təlimi sisteminin fəaliyyətinə dair müasir informasiya-kommunikasiya texnika və texnologiyalarından geniş istifadə edilməsi, mütəmadi müzakirə və məsləhətləşmələrin təşkili, bu sahədə olan yeniliklərin kütləvi informasiya vasitələri, internet və sosial şəbəkə yolu ilə ictimaiyyətə və geniş istifadəçi auditoriyasına çatdırılması bir tərəfdən ictimaiyyətdə peşə təhsili sahəsində olan təsəvvürlərin müsbət istiqamətdə dəyişməsinə zəmin yaradar, digər tərəfdən isə iş və karyera imkanlarının inteqrasiyası vasitəsilə peşə təhsili məzunlarının əmək bazarına çıxış imkanlarına təkan verə bilər. Peşə təhsili sisteminin bütün iştirakçılarının eyni məlumat bazasında toplanması, müvafiq məlumatların və bu məlumatlar üzrə aparılmış analitik təhlillərin həmin bazada cəmləşməsi mühümdür.

## Ədəbiyyat

1. İlk peşə-ixtisas təhsili: problemlər və perspektivlər. Təhsil Problemləri İnstitutu. Bakı: "Şahin MB" MMC, – 2016. – 250 s.
2. Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji yol xəritəsi: Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 52 s. URL: https://president.az/articles/22252
3. Azərbaycan Respublikasının Peşə təhsili haqqında Qanunu: Bakı: № 1071-VQ, 26 aprel 2018-ci ildə qəbul edilmişdir (17 aprel 2020-ci il tarixdə olan dəyişiklik və əlavələr). URL: http://www.e-qanun.az/framework/39275
4. Мустафаев, Ф.Ф. Новый взгляд на развитие системы начального профессионального образования в Азербайджане // Газета «Бакинский рабочий». – 2017, 15 февраля.
5. Гурбанова, И.М. Основные приоритеты профессионального образования и обучения в повышении эффективной занятости // Вестник Челябинского государственного университета. Экономические науки. – 2020. Выпуск 68. №2 (436). – с. 102-114.
6. Гурбанова, И.М. Основные задачи сторон в развитии профессионального образования // II ReФорум «Управлять мечтой» Международная научно-практическая конференция. «Управление, экономика и общество 2020: проблемы и пути развития». Челябинский государст. университет, – 2020, – 15-16 апрель, – с. 30-34.
7. https://www.stat.gov.az/source/education/

***Тарана Наджафова***

***Современные направления развития профессионально-специального образования в Азербайджане***

***Резюме***

*Несмотря на то, что влияние приоритетов, определенных в секторе профессионального образования и обучения, на реальный ВВП составит около 6 млн. манатов, эти приоритеты приведут к появлению косвенного воздействия в размере 1 млрд. манатов в рамках приоритетов других секторов. Таким образом, сектор профессионального образования и обучения, взаимодействуя с другими секторами экономики, играет важную роль в полной реализации потенциала этих секторов, и инвестиции в этот сектор в конечном итоге оказывают мультипликативное влияние на экономику. В статье рассмотрены направления подготовки и использования кадров с профессионально-специальным образованием в Азербайджанской Республике. Опыт развитых стран показал, что сектор профессионального образования и обучения, взаимодействуя с другими секторами экономики, играет важную роль в полной реализации потенциала этих секторов.*

***Ключевые слова***: *образование, профессиональное обучение, обучение персонала, обучение, бизнес, развитие*

***Tarana Najafova***

***Modern development directions of vocational education in Azerbaijan***

***Summary***

*Despite the fact that the priorities identified in the vocational education and training sector will have an impact on real GDP of about 6 million Manats, these priorities will lead to an indirect impact of 1 billion Manats within the priorities of other sectors. Thus, the vocational education and training sector, interacting with other sectors of the economy, plays an important role in the full realization of the potential of these sectors, and investments in this sector ultimately have a multiplier effect on the economy. The article examines the directions of training and use of vocational education personnel in the Republic of Azerbaijan. The experience of developed countries has shown that the vocational education and training sector, interacting with other sectors of the economy, plays an important role in the full realization of the potential of these sectors.*

***Keywords***: *education, vocational training, staff training, training, business, development*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 12.08.2022.***
***Çapa qəbul olunub: 19.08.2022.***